www.amu.edu.az

# TƏBİB

Təsisçi: Azərbaycan Tibb Universiteti — Qəzet 1933-cü ildən çıxır — №-13 (1774) 14 iyul 2023-cü il



## Azərbaycan Tibb Universitetinin təntənəli "Məzun günü" keçirildi

**Rektor, professor Gəray Gəraybəyli: "Harada çalışacağınızdan asılı olmayaraq, universitetimizin adını həmişə yüksək tutacağınıza əminəm"**

səh. 2-3

### ATU-nun məzunu "İlin tələbəsi" seçilib

səh. 5

### Əcnəbi tələbələr ATU-da istehsalat təcrübəsinə başlayıb

səh. 5

### Psixoaktiv maddələrdən asılılıq təkcə tibbi deyil, həm də ictimai problemdir

səh. 7



### Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı 30 illiyini qeyd edib

Dünənin, bu günün və gələcəyin partiyasının təməlində xalqın sevgisi və etimadı dayanır

səh. 4

### Dağınıq skleroz xəstəliyinə dair seminar keçirilib

*Professor Aytən Məmmədbəyova: Xəstəliyin yaranması xarici mühit amilləri və irsi meyilliliyin qarşılıqlı təsiri ilə şərtlənir*

səh. 5

### Uşaq və yeniyetmələrin sağlamlığı ilə məşğul olan kafedra

*Burada tədris prosesi ilə yanaşı, elmi tədqiqatlar da aparılır*

səh. 7



### 35 tələbə magistr dərəcəsinə layiq görülüb

Magistratura təhsil pilləsində yay sessiya imtahanları və dissertasiya müdafiələri yekunlaşıb

səh. 6

# Azərbaycan Tibb Universitetinin

## Rektor, professor Gəray Gəraybəyli: “Harada çalışacağınızdan asılı olmayaraq,















**Azərbaycan Tibb Universiteti buraxılış tələbələrinin “Məzun günü” bu dəfə iyulun 1-də Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında təntənəli şəkildə qeyd olundu. Məzunların sevincini bölüşmək üçün tədbirdə ATU-nun rəhbərliyi, əməkdaşları, tələbələr, Səhiyyə Nazirliyinin rəsmi şəxsləri, qonaqlar, eləcə də valideynlər iştirak edirdilər.**

Tədbiri giriş sözü ilə açan tanınmış teleaparıcı Saleh Bağırov ölkəmizin ən qabaqcıl universitetlərindən biri olan Azərbaycan Tibb Universitetinin öz ənənəsinə sadiq qalaraq, növbəti məzunlarını müstəqil həyata yola saldığını bildirdi: “Siz məzunlar 6 il əvvəl məktəb sıralarından universitet həyatına qədəm qoyub tələbə adı qazanarkən nə qədər həyəcanlı və sevincli idinizsə, bu gün tələbəlik illəri ilə vidalaşarkən də bir o qədər həm sevincli, həm də həyəcanlısınız. Çünki universiteti tərk edib həkim ordusu sıralarına qoşulursunuz. Bu həm çox məsuliyyətli, həm də şərəfli bir addımdır. Heç təsadüfi deyil ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanda həkim və müəllimlərin rolunu yüksək qiymətləndirir, onları daim diqqət mərkəzində saxlayırdı. Ulu Öndərimizin layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təhsilimizin inkişafı naminə həmişə seçilən tələbələri diqqət və qayğı ilə əhatə edir. Yüksək balla universitetlərə qəbul olunan tələbələrin Prezident təqaüdü ilə mükafatlandırılması buna bariz nümunədir”.

Aparıcı, son illər həyata keçirilən islahatların nəticəsi olaraq, Tibb Universitetinin bir sıra uğurlara imza atdığını qeyd etdi. Bildirdi ki, belə uğurlardan biri də universitetimizin tədris proqramlarının 2022-ci ildə beynəlxalq akkreditasiyadan uğurla keçməsi olub. Bu münasibətlə ATU-nun kollektivini təbrik edən S.Bağırov, məzunlara gələcək həkimlik fəaliyyətində uğurlar arzuladı.

Dövlət Himni səsləndirildikdən sonra təbrik nitqi ilə səhiyyə naziri Teymur Musayev çıxış etdi. Nazir 1993-cü ildə Azərbaycan Tibb Universitetinin məzunu olduğunu və bununla fəxr etdiyini bildirdi. O, “Məzun günü”nün gələcəyin həkimlərinin yaddaşında gözəl bir gün kimi qalacağını qeyd etdi: “Məzunlarımıza arzularının reallaşdığı bu möhtəşəm tədbirdə səhiyyə ictimaiyyəti adından “aramıza xoş gəldiniz” deyirəm. Sizlərə peşə rifahı, xoşbəxtlik və firavanlıq arzu edirəm”.

Nazir Azərbaycanda səhiyyə sahəsinə həmişə dövlət tərəfindən xüsusi diqqət yetirildiyini də xatırlatdı: “Müasir Azərbaycanın qurucusu və memarı Ümummilli Lider Heydər Əliyev və onun ömür-gün yoldaşı, görkəmli oftalmoloq alim, akademik Zərifə Əliyevanın bu il yubiley tədbirləri respublikanın bütün ərazisində təntənəli şəkildə keçirilir. Müstəqil dövlətimizdə hər sahədə olduğu kimi, səhiyyə və təhsildə də inkişaf Ulu Öndərin adı ilə bağlıdır. Milli kadrların hazırlanması istiqamətində lazımı töhfələrini verən Ümummilli Lider, o zaman SSRİ-nin ittifaq səviyyəli tibb müəssisələrində elmi-tədqiqat işlərini davam etmək, təcrübələrini artırmaq üçün aspirant və doktorantların göndərilməsinə şərait yaradırdı. Bu gün həmin kadrlar yeni nəsil həkimlərin yetişməsində müstəsna rol oynayır.

Görkəmli oftalmoloq alim Zərifə xanım Əliyevanı da Azərbaycan Tibb Universiteti ilə qırılmaz tellər bağlayır. Universitetimizin məzunu olan Zərifə xanım təbabətin inkişafına böyük töhfələr verib. Onun əsərləri ilə yetişən və püxtələşən tələbələri və məktəbinin davamçıları hazırda da mütəxəssislərin yetişməsində öz bilik və bacarıqlarını əsirgəmirlər”.

Nazir T.Musayev bu gün qocaman təhsil ocağının yeni nəsil təhsil standartlarına əsaslanaraq və müasir informasiya texnologiyalarından istifadə edərək, beynəlxalq akkreditasiyadan keçmiş tədris proqramları ilə yüksək ixtisaslı mütəxəssislər hazırladığını vurğuladı. Nəzərə çatdırdı ki, hazırda ölkəmizdə dövlət başçısı cənab İlham Əliyevin uzaqgörən siyasəti, bacarıqlı rəhbərliyi və gərgin zəhməti sayəsində hər sahədə inkişaf gedir: “O cümlədən əhalinin sağlamlığının qorunması sahəsində də böyük nailiyyətlər əldə olunub. Səhiyyənin tərəqqisi daim dövlətimizin diqqət mərkəzindədir. Səhiyyənin inkişafı üçün güclü islahatlar aparılır. Rəqəmsallaşma, təminatlı və keyfiyyətli tibbi xidmət istiqamətində kifayət qədər işlər görülür.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, özü də ixtisasca həkim olan Mehriban xanım Əliyeva da səhiyyə sahəsində çalışanlara həmişə diqqət və qayğı göstərir. Tibb işçilərinin əməyi, fədakarlığı daim yüksək qiymətləndirilir”.

Nazir, həmçinin həkimlərimizin Vətən müharibəsində göstərdikləri fəaliyyətə də diqqət çəkdi. Bildirdi ki, 44 günlük müharibədə həkimlik andına sadiq qalan tibb işçilərimiz hər bir yaralıya zəruri xidmət göstərib, neçə-neçə döyüşçülərimizin həyatını xilas edib. Torpaqlarımızın işğaldan azad olunması ilə nəticələnən müharibənin gedişində 159 tibb işçisi müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 44 tibb işçisi qəhrəmancasına şəhid olub.

Tədbirdə çıxış edən ATU-nun rektoru, professor Gəray Gəraybəyli “Məzun günü”ndə iştirak etdiyi üçün səhiyyə naziri Teymur Musayevə, nazirliyin rəsmilərinə, qonaqlara, məzunların valideynlərinə təşəkkürünü bildirdi: “Əziz məzunlar, bu gün sizin həyatınızda əlamətdar bir hadisə baş verir. Siz artıq tam sərbəst, müstəqil həyata başlayırsınız. 6 il öncə Tibb Universitetinin auditoriyalarına qədəm qoymusunuz. Bu 6 il ərzində Azərbaycan Tibb Universitetinin böyük ailəsinin üzvü olmusunuz. Sizin tələbəlik həyatınız kifayət qədər mürəkkəb və rəngarəng olub. Belə ki, oxuduğunuz dövrdə pandemiya baş verib, dərsləriniz fərqli formatda keçirilib. Bununla yanaşı, Azərbaycanın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük müharibədə 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımız azad olunub. İstər pandemiya, istər müharibə və istərsə də müharibədən sonrakı dövrlərdə tələbələrimiz xəstələrimizə, qazilərimizə tibbi yardım göstərməkdə böyük fədakarlıq nümayiş etdiriblər. Onların sırasında da siz məzunların adlarını da fəxrlə çəkə bilərəm”.

Professor G.Gəraybəyli qeyd etdi ki, bundan sonra məzunların bir çoxu praktik fəaliyyətlə məşğul olacaq, bəziləri tibb elmində araşdırmalarını davam etdirəcək, bəziləri isə müəllimlik sənətini seçəcək: “Seçdiyiniz fəaliyyət növündən asılı olmayaraq, sizlərə müvəffəqiyyətlər və uğurlar arzulayıram. İstər ölkəmizdə, istərsə də ölkəmizdən kənarda fəaliyyət göstərdiyiniz zaman bir məzun kimi, Azərbaycan Tibb Universitetinin adını həmişə yüksək tutacağınıza əminəm”.

Sonra universitetin Tədris departamentinin rəhbəri, dosent Kamandar Yaqubov 2023-cü il məzunlarına həkim adının verilməsi ilə əlaqədar müvafiq əmri oxudu. Departament rəhbərinin çıxışından məlum oldu ki, bu il Azərbaycan Tibb Universitetini I Müalicə-pro-

# təntənəli “Məzun günü” keçirildi

## universitetimizin adını həmişə yüksək tutacağınıza əminəm”

filaktika fakültəsi üzrə 393, II Müalicə-profilaktika fakültəsi üzrə 371, Stomatologiya fakültəsi üzrə 224, Əczaçılıq fakültəsi üzrə 115, İctimai səhiyyə fakültəsi üzrə 69, o cümlədən Hərbi tibb fakültəsi üzrə 45 – ümumilikdə 1217 nəfər bitirib. Onlardan 152 nəfəri fərqlənmə diplomuna layiq görülüb. Məzunların 389 nəfəri xarici ölkə vətəndaşlarıdır.

Sonra Hərbi tibb fakültəsinin məzunu Nicat Nəsiblinin cümlə-cümlə oxuduğu Həkim Andını təkrarlayan məzunlar xalqımızın sağlamlığının keşiyində ləyaqətlə dayanacaqlarına söz verdilər.

Təhsilini əla qiymətlərlə başa vuran məzunlara - Səbinə Feyzullayeva, Çinarə Kərimova, Xariqə Əzimli, Aysun İtifatlı, Şövkət Qasımova, Coşqun Adilov, Elnurə Məmmədova, Günel Bağırova, Turan Zeynalova və Şölə Aslanovaya səhiyyə naziri Teymur Musayev və ATU-nun rektoru, professor Gəray Gəraybəyli tərəfindən diplomlar təqdim olundu.

Məzun tələbələr adından I Müalicə-profilaktika fakültəsinin məzunu, Prezident təqaüdçüsü Səbinə Feyzullayeva çıxış etdi: “Mən 2017-ci ildə Azərbaycan Tibb Universitetinə yüksək balla, Prezident təqaüdü ilə daxil olmuşam. Təhsil aldığım 6 il ərzində əla qiymətlərlə təqaüdümü qoruyub saxlamışam. Bu səviyyədə qalmağım üçün illərlə elimdən gələni etmişəm və bu gün Azərbaycan Tibb Universitetinin məzunu olaraq həkim adını qazanıram. Bu müddət ərzində ömrüm boyu mənə faydalı olacaq təcrübə əldə etdim, etibarlı dostlar qazandım, dəyərli müəllimlərimdən dərslər aldım. Bizə göstərdikləri diqqət və qayğıya görə məzunlar adından cənab rektorumuza, bizə dəstək olan valideynlərimizə, hər problemimizdə bizə yardım edən, həmişə yanımızda olan dekanımıza, dekan müavinlərimizə dərin təşəkkürümü bildirirəm”.

Daha sonra ATU-da təhsil aldığı müddətdə universitetin ictimai həyatında fəal iştirak edən tələbələr mükafatlandırıldı. Tədris və müalicə işləri üzrə prorektor, professor Sabir Əliyev II Müalicə-profilaktika fakültəsinin məzunu Kamran Əliyevə, Əczaçılıq fakültəsinin məzunu Məryəm Abdullayevaya, Tərbiyə işləri üzrə prorektor, dosent Zülfüqar Musabəyov II Müalicə-profilaktika fakültəsinin məzunu Nihat Novruzova, Stomatologiya fakültəsinin məzunu Anar Dünyamalıyevə, Həmkarlar İttifaqı Komitəsinin sədri, dosent Cahangir Qasımov Hərbi tibb fakültəsinin məzunu Nicat Nəsibliyə, İctimai səhiyyə fakültəsinin məzunu Emilya Hacıhəsənovaya, Elmi işlər üzrə prorektor, professor Rauf Bəylərov I Müalicə-profilaktika fakültəsinin məzunu Rəşad Abızadəyə, II Müalicə-profilaktika fakültəsinin məzunu Zahid Azayevə, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Orxan İsayev I Müalicə-profilaktika fakültəsinin məzunu Laçın Mehdipura və II Müalicə-profilaktika fakültəsinin məzunu Sevda Əzimovaya mükafatları təqdim etdilər.

Bu il fakültələr üzrə məzun tələbələr arasında “Ən yaxşı müəllim” nominasiyası üzrə keçirilən sorğuya əsasən isə, I Müalicə-profilaktika fakültəsinin dekanı, dosent Elşad Novruzov I Uşaq xəstəlikləri kafedrasının assistenti Bəyaz Babayevaya, II Müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli Ümumi cərrahlıq kafedrasının müdiri, professor Elçin Ağayevə, Stomatologiya fakültəsinin dekanı, dosent Səid Əhmədov Ağız və üz-çənə kafedrasının assistenti Oktay Mehtiyevə, İctimai səhiyyə fakültəsinin dekanı, dosent Qalina Qəniyeva Biokimya kafedrasının assistenti Hikmət Məmmədova, Əczaçılıq fakültəsinin dekanı, dosent Fərəh Mədətli Əczaçılıq kimyası kafedrasının dosenti Vaqif İskəndərova, Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov Tibbi-profilaktika kafedrasının rəisi, tibb xidməti polkovnik-leytenantı Şahin Süleymanova mükafatları təqdim etdilər.

Tədbir davam edərkən bu il universitetimizi fərqlənmə diplomu ilə bitirən məzunların bəziləri və valideynlərinin təəssüratlarını öyrəndik. I Müalicə-profilaktika fakültəsinin məzunu Xariqə Əzimli özünü çox xoşbəxt hiss etdiyini, sevincli olduğunu bildirdi: “Diplomumun hörmətli nazir tərəfindən təqdim olunması mənə bir daha qürur verdi və üzərimə əlavə məsuliyyət qoydu. Qazandığım uğurlarıma görə Tibb Universitetinin professor-müəllimlərinə təşəkkür edirəm. Bu təşəkkürdən heç şübhəsiz ki, əziyyətimi çəkən, məni qayğılardan uzaq tutan valideynlərimə də pay düşür”.

Xariqənin atası Xanoğlan Əzimov da qızının məzun olmasına görə çox sevincli idi: “I Qarabağ müharibəsi veteranı kimi ən xoş hisslərimi indi keçirirəm. O vaxt şahidi olduğumuz ağır günlərdən sonra fikirləşirdim ki, görəsən xoş günlər də yaşayacağımqmı? Nəhayət, bu günləri gördüm. Torpaqlarımız 44 günlük müharibədə işğaldan azad olundu. Bir millət olaraq sevindik. Ötən il böyük qızım Fəzanə Əzimzadə Tibb Universitetini fərqlənmə diplomu ilə bitirdi. Bu il də Xariqə məzun oldu. Yenə də sevincliyəm. Oğlum isə Tibb Universitetinin 4-cü kurs tələbəsidir, Prezident təqaüdçüsüdür. Bundan xoş gün nə ola bilər?”

Məzun olmağın sevincini yaşayan Şölə Əliyeva tibb təhsilini Türkiyədə davam etdirmək niyyətindədir. Zəhməti keçən hər kəsə təşəkkürünü bildirdi. Anası Səfiyyə Əliyeva da qızının bir həkim kimi yetişməsində müəllimlərin xeyli əziyyəti olduğunu dedi və professor-müəllim heyətinə minnətdarlıq etdi.

Tədbirdə qeyd olundu ki, Azərbaycan Tibb Universitetində yerli tələbələrlə yanaşı, 43 müxtəlif ölkədən - Türkiyə, İran, İordaniya, Suriya, İraq, Pakistan, Sudan, Rusiya Federasiyası, Yəmən, Fələstin, İsrail, Misir, Nigeriya, Hindistan, İsveç, Türkmənistan, Qazaxıstan, Gürcüstan, Livan, Liviya, Çin və s. ölkələrdən çoxlu sayda əcnəbi tələbə təhsil alır. Universitetin rəhbərliyi başda olmaqla, professor-müəllim heyəti onlara xüsusi qayğı ilə yanaşır, peşəkar həkim kimi yetişmələri üçün əllərindən gələni əsirgəmirlər.

Universitetin Himni səsləndirildikdən sonra Hərbi tibb fakültəsinin məzun tələbələrinin təntənəli şəkildə sıra keçidi oldu.

Rəsmi hissənin ardınca universitetin “Şəfa” xalq çalğı alətləri və “Çinar” rəqs ansambllarının rəngarəng çıxışları alqışlarla qarşılandı. Xalq artisti Gülyaz Məmmədova, əməkdar artist Mətanət İsgəndərli, “Star band” və digər qrupların bir-birindən gözəl ifaları isə məzunlar arasında coşqu yaratdı.

Beləcə, Azərbaycan Tibb Universiteti növbəti dəfə öz məzunlarını müstəqil həyata pərvazlandırdı.

**Qabil ABDULLAYEV**













# Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı 30 illiyini qeyd edib

## Dünənin, bu günün və gələcəyin partiyasının təməlində xalqın sevgisi və etimadı dayanır

**ATU-da Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatının yaradılmasının 30 illiyinə həsr olunmuş tədbir keçirilib. Dövlət Himnimizin səsləndirilməsi ilə başlayan tədbirdə əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həyatlarını qurban vermiş şəhidlərimizin xatirəsi ehtiramla yad olunub. Bundan sonra YAP-ın Nəsimi rayon təşkilatının 30 illik fəaliyyəti haqqında videoçarx nümayiş etdirilib.**



Tədbirdə çıxış edən rayon təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru Azər Süleymanov xalqımızın ağır sosial-iqtisadi, siyasi və mənəvi-psixoloji böhranla üzləşdiyi dövrdə vətənpərvər insanların, ziyalıların təşəbbüsü ilə yaradılan Yeni Azərbaycan Partiyasının qısa bir müddətdə əsl xalq partiyasına çevrildiyini vurğulayıb. O, rayon təşkilatının düz 30 il əvvəl öz təsis yığıncağını məhz bu zalda keçirdiyini xatırladaraq, bu işdə böyük zəhməti olan insanların fəaliyyətini yüksək qiymətləndirib. Qeyd edib ki, YAP-ın yaranması 1988-ci ildən başlayaraq ölkəmizdə cərəyan edən hadisələrin yekunu və mövcud ictimai-siyasi şəraitin məntiqi nəticəsi idi: "Bu illərdə yaradılmış onlarla partiya ölkəni ağır iqtisadi, siyasi, mənəvi böhrandan nəinki qurtara bilmədi, əksinə, respublikadakı ümumi vəziyyəti daha da ağırlaşdırdı. Bu zaman Azərbaycanın taleyini düşünən insanlar ölkəni böhrandan çıxara biləcək yeni bir partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər və xalqın sınanmış lideri Heydər Əliyevin şəxsiyyəti ətrafında birləşdilər. Məhz belə bir vaxtda 91 nəfər Azərbaycan ziyalısının imzası ilə Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə müraciət göndərildi. Azərbaycanın ən yeni tarixinə "91-lərin müraciəti" kimi daxil olmuş həmin sənəd, əslində bütün xalqın arzu və istəyinin ifadəsi idi".

Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəldikdən sonra ölkədə sabitliyi bərpa etdiyini, separatçı qüvvələri zərərsizləşdirdiyini söyləyən A.Sülemanov,1994-95-ci illərdə dövlət çevrilişlərinə cəhdlərin qarşısının da qətiyyətlə alındığını diqqətə çatdırıb.

Onu da bildirib ki, Ulu Öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kursu ölkə başçısı İlham Əliyev uğurla davam etdirməsi sayəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, müasirləşən bir dövlətinə çevrilib. Eyni zamanda dövlətimizin daha da güclənməsində, xalqımızın rifahının daha da yaxşılaşmasında Heydər Əliyev Fondunun rəhbəri, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyevanın əvəzolunmaz xidmətləri var.

Sonra çıxış edən Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov bildirib ki, Yeni Azərbaycan Partiyası xalqın mənafelərinə xidmət etmək, ölkəmizin qarşısında duran məsələləri həll etmək üçün zamanın tələblərinə uyğun olaraq, zərurətdən yaranmış bir partiyadır. Qısa müddət ərzində partiya xalqın böyük əksəriyyətinin etimadını qazanıb və güclü təşkilatlanma ilə avanqard siyasi qüvvəyə çevrilib. Bu isə dünənin, bu günün və gələcəyin partiyasının təməlində yalnız xalqın sevgisinin, etimadının dayandığının bir daha sübut edir.

Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının üzvü, professor Dilarə Seyidzadə qeyd edib ki, YAP Azərbaycanın son dərəcə ağır zamanında, ölkədə hərc-mərcliyin baş alıb getdiyi bir dövrdə yaranıb: "Həmin illərdə Azərbaycanda bir sıra siyasi partiyalar fəaliyyət göstərsələr də, onlar arasındakı daxili çəkişmələr imkan vermirdi ki, ölkədə yaranan böhran aradan qaldırılsın. Azərbaycan müstəqilliyini itirməyə doğru gedirdi. Bunu görən, xalqın taleyinə laqeyd qala bilməyən insanlar ölkəmizin işıqlı gələcəyi naminə yeni çağırışlara cavab verə biləcək partiya yaratmaq təşəbbüsü ilə çıxış etdilər. 1992-ci il noyabrın 21-də Ulu Öndər Heydər Əliyevin



sədrliyi ilə təsis konfransı keçirilib və Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi qəbul edilib, Ümummilli Lider yekdilliklə partiyanın sədri seçilib. Beləliklə də müstəqil Azərbaycanın ən güclü partiyası - Yeni Azərbaycan Partiyası yaranıb".

Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli ilk növbədə, tədbir iştirakçılarını bu tarixi hadisə münasibətilə təbrik edib. Sonra çıxışına davam edərək bildirib ki, 30 il tarix üçün böyük bir müddət olmasa da, insan həyatı üçün kifayət qədər böyük mərhələdir. 30 il əvvəl niyə məhz bu zalın seçilməsinə də aydınlıq gətirən rektor xatırladıb ki, o vaxt bu auditoriya Tibb Universitetinin ən gözəl auditoriyası idi: "Bu gün daha möhtəşəm, daha böyük zallarımız, auditoriyalarımız var. Ancaq düşündük ki, bu günkü tədbirin burada keçirilməsi həm də rəmzi məna daşıyır. Danılmaz faktdır ki, möhtəşəm rəsm əsərlərini yaxından seyr edib qavramaq çətindir. Onlara mütləq müəyyən bir məsafədən baxmaq lazımdır. Məncə, tarixi hadisələr və tarixi şəxsiyyətlərə baxış da belədir. 30 il bundan öncə Yeni Azərbaycan Partiyasının yarandığı dövrü yaşamışıq. Mən universiteti təzə bitirmiş gənc kafedra işçisiydim. Səhv etmirəmsə, o zaman Azərbaycanda 90-dan artıq partiya qeydiyyatdan keçmişdi və hər partiya da vəd verirdi ki, Azərbaycanı bəlalardan xilas edəcək. Ancaq bu missiyanı Yeni Azərbaycan Partiyası həyata keçirdi. Çünki partiyanın rəhbəri Heydər Əliyev kimi dahi şəxsiyyət idi. Belə şəxsiyyətlər isə 100, 200 ildə bir dəfə dünyaya gəlir. Onların bir çoxu tarixə təsir göstərə bilirlər. Heydər Əliyev isə Azərbaycanın yeni tarixini yaradırdı".

Ulu Öndər Heydər Əliyevin hər bir azərbaycanlı üçün əziz, müqəddəs bir insan olduğunu söyləyən professor Gəray Gəraybəyli, bu dahi şəxsiyyətin Azərbaycan Tibb Universitetinin tələbələri, əməkdaşları üçün xüsusilə əziz olduğunu vurğulayıb: "Ulu Öndər hər zaman həkimlərə, tibb ictimaiyyətinə çox bağlı bir insan idi. O hətta ikinci dəfə hakimiyyətə gələndən sonra iki dəfə Azərbaycan Tibb Universitetində olmuşdu. Ulu Öndər hər zaman qeyd edirdi ki, həkimlər mənim dostlarımdır. Bu heç də təsadüfi deyildi. Çünki onun ailəsində Əziz Əliyev kimi böyük səhiyyə təşkilatçısı, dövlət xadimi, bu il 100 illiyini qeyd etdiyimiz çox böyük alim, akademik Zərifə xanım Əliyeva və vaxtilə universitetimizin tələbəsi olmuş, ixtisasca həkim, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva vardı".

Ulu Öndərimizin sərəncamı ilə ATU-da Hərbi tibb fakültəsinin yaradıldığını da xatırladan rektor, bu fakültənin 18 məzununun 44 günlük Vətən müharibəsində şəhidlik zirvəsinə ucaldığını deyib. Bildirib ki, məhz Heydər Əliyevin apardığı daxili və xarici siyasət nəticəsində, özünün dediyi kimi, Azərbaycan dünyaya işıq saçan dövlətə çevrilmişdir: "Bu gün də onun siyasəti möhtərəm prezidentimiz İlham Əliyev, Birinci vitse-prezidentimiz Mehriban xanım Əliyeva tərəfindən uğurla davam etdirilir. Artıq qalib xalqıq. Buna görə də biz Ulu Öndərimizə və Yeni Azərbaycan Partiyasına minnətdarıq".

Nəsimi Rayon Ağsaqqallar Şurasının İdarə Heyətinin sədri, professor Vaqif Şadlinski vurğulayıb ki, əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuş həqiqi müstəqilliyimiz Prezident İlham Əliyev tərəfindən tamamilə sarsılmaz hala gətirilib, ölkəmizdə olan demokratiya, tolerantlıq, bütün xalqların qardaş kimi yaşaması dünya dövlətləri üçün örnəkdir. Azərbaycan Prezidenti nüfuzlu beynəlxalq tədbirlərə rəhbərlik edir, dövlətimizdə elm, təhsil, səhiyyənin yüksəlişi, biznesin inkişafı üçün yaradılmış şərait dünya iqtisadi nəhənglərinin Azərbaycana can atmasına, iqtisadiyyatımızın artmasına şərait yaradır.

Yüksək mənəviyyatı, Vətəninə bağlılığı ilə nümunə olan Prezidentimiz həmişə xalqlar və xalq da hər zaman onun yanındadır. Azərbaycan ziyalılarının ölkəmizin ağır günlərində Ulu Öndərimizin ətrafında birləşməsi nəticəsində yaranmış Yeni Azərbaycan Partiyası Prezident İlham Əliyevin parlaq strategiyası sayəsində nəinki Cənubi Qafqazda, bütün dünyada qabaqcıl siyasi qüvvəyə çevrilib.

Daha sonra YAP İdarə Heyətinin üzvü, Azərbaycan–Fransız Universitetinin (UFAZ) icraçı direktoru Vazeh Əsgərov tədbir iştirakçılarına partiya sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun salamlarını və təbriklərini çatdırıb. O, çıxışında ölkəmizin mövcudluğunun sual altında olduğu bir zamanda, bu cür taleyüklü məsələdə Ümummilli Lider Heydər Əliyevin xilaskarlıq missiyasını öz üzərinə götürməsindən bəhs edib. V.Əsgərov vurğulayıb ki, məhz Ulu Öndərin gərgin səyləri ilə Azərbaycan çətinliklərdən keçdi, inkişaf və tərəqqiyə qovuşdu. Bu gün Ümummilli Lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan bölgənin söz sahibinə çevrilib.

Daha sonra şəhid atası Ceyhun Kərimli və Nəsimi Rayon Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin sədri Azər Quliyev tədbirdə çıxış ediblər. Onlar Prezident İlham Əliyevin şəhid ailələrinə daim diqqət və qayğı göstərdiyini və hər bir şəhid ailəsinin bu münasibəti daim hiss etdiyini vurğulayıblar. A.Quliyev İctimai Birlik üçün təsis edilən "Vətən naminə" medalını rayon təşkilatının sədrinə təqdim edib.

Sonda YAP Nəsimi rayon təşkilatının yaradılmasında və fəaliyyətində xidmətləri olan bir qrup şəxsə fəxri fərman, təşəkkürnamə, partiya biletləri və hədiyyələr təqdim olunub.

**Arif MƏMMƏDLİ**

# Ailə təbabəti kafedrasında yeniliklər olacaq

**ATU-nun Ailə təbabəti kafedrasının növbəti toplantısı keçirilib. İclası kafedranın müdiri, professor İbrahim İsayev açaraq, kafedranın qonağı olan ÜST-ün Azərbaycan Nümayəndəliyinin eksperti, Türkiyənin Marmara Universitetinin Ailə həkimliyi kafedrasının professoru Mehmet Akmanı təqdim edib.**



Son illər Azərbaycanda ilkin tibbi-sanitariya yardımının gücləndirilməsi və ailə həkimi institutunun formalaşdırılması istiqamətində ardıcıl addımlar atılır. Ailə həkimi institutu ilkin səhiyyə xidmətində mərkəzi rol oynayaraq ümumilikdə səhiyyə sisteminin təməl sütununu təşkil edir.

Təbii olaraq, islahatlar ailə həkiminin yetişdirilməsi prosesindən də yan keçməyib, fənnin tədrisində dəyişikliklərə start verilib. Belə ki, Ailə təbabəti kafedrasında 2023-2024-cü tədris ilində mühüm yeniliklər olacaq. Məqsəd əhaliyə keyfiyyətli ilkin tibbi yardımı göstərən ailə həkimlərinin formalaşdırılmasıdır.

Qeyd etmək lazımdır ki, ailə həkiminin işinin ambulator qəbul və evdə xidmət (çağırış və feal gedişlər) yolu ilə həyata keçirilməsi nəzərdə tutulur. Tələbələr və rezidentlər müəllim heyətinin nəzarəti altında həm ambulator qəbula müraciət edənlərlə, həm də ərazidə insanlarla görüşərək, onların müayinə, müalicə və müşahidəsi ilə məşğul olacaqlar.

Professor Mehmet Akmanın çıxışı kafedra əməkdaşlarının diskussiyaları ilə müşayiət olunub. Müzakirələrin gedişində islahatlar prosesi ilə bağlı ən optimal variantlar səsləndirilib.

Kafedradakı bu yeniliklər tələbələrin və həkim-rezidentlərin praktiki vərdişlər və bacarıqlar əldə etməsi baxımından çox mühümdür və onların gələcək iş vərdişlərində böyük rol oynayacaq.

# ATU-nun məzunu "İlin tələbəsi" seçilib

**Azərbaycan universitetləri üzrə 2023-cü ilin tələbəsi seçilib. Bu ada Azərbaycan Tibb Universitetinin məzunu Səbinə Feyzullayeva layiq görülüb.**

6 il əvvəl Sumqayıtdakı Təbiət Elmləri Təmayüllü Gimnaziyanı qızıl medalla bitirərək 690 balla universitetimizi seçən S. Feyzullayeva həm də Prezident təqaüdü alıb. Ən əsası, 6 il ərzində ən yüksək akademik göstəricilərlə Prezident təqaüdçüsü statusunu qoruyub. Bu il isə 98,21 balla ATU-dan məzun olub.

Qeyd edək ki, o, iş və təhsil karyerasını Almaniyada davam etdirəcək.

ATU ailəsinin üzvünü təbrik edir, gələcək həyatında uğurlar arzulayırıq!





# Əməkdaşımız radiologiya üzrə beynəlxalq forumda iştirak edib

**29 iyun - 1 iyul 2023 tarixlərində Qazaxıstanın paytaxtı Astana şəhərində radioloqların X Avrasiya forumu keçirilib.**

Avropa, Asiya və Amerika qitəsindən olan mütəxəssislərin qatıldığı bu elmi toplantıda Azərbaycan Tibb Universitetinin Şüa diaqnostikası və terapiyası kafedrasının müdiri, professor Məlahət Sultanova da iştirak edib.

Qazaxıstan Səhiyyə Nazirliyi və Astana Tibb Universiteti tərəfindən təşkil edilən forumda professor M.Sultanova və nümayəndə heyətinin üzvü, Azərbaycan Radioloqlar Cəmiyyətinin sədri, dosent Yunus Əfəndiyev məruzə ilə çıxış ediblər. Tədbirdə diaqnostik və intervension radiologiyanın vacib problemlərinə dair müzakirələr aparılıb.

# Əcnəbi tələbələr ATU-da istehsalat təcrübəsinə başlayıb



**İyulun 7-də Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında ATU-da istehsalat təcrübəsi keçəcək əcnəbi tələbələrlə görüş olub. Görüşdə Rezidentura və magistratura şöbəsinin müdir müavini, assistent Namiq Xəlilov çıxış edib.**

O, əcnəbi tələbələri universitet rəhbərliyi adından salamlayaraq, onların Həkimlər və Təbib Tələbələr İctimai Birliyi ilə ATU arasında imzalanmış memorandumuna əsasən, klinikanın Ümumi cərrahiyyə, Neyrocərrahiyyə, Travmatologiya, Uşaq cərrahiyyəsi, İnvaziv kardiologiya və Ginekologiya şöbələrində bir ay müddətində təcrübə keçəcəklərini bildirib. Qeyd edib ki, bu məsələ sor Gəray Gəraybəylinin, o cümlədən klinika rəhbərliyinin diqqət mərkəzindədir.

Klinikanın baş həkimi, professor Fariz Camalov öz çıxışında TCK-nın fəaliyyəti, burada aparılan müayinə və müalicələr haqqında əcnəbi tələbələrə ətraflı məlumat verib. Onlara təcrübələrini yüksək səviyyədə keçmələri üçün hər cür şərait yaradıldığını söyləyib və uğurlar arzulayıb.

Görüşdən sonra N.Xəlilov qonaq tələbələri klinikanın şöbələri ilə tanış edib.

Qeyd edək ki, bir ay ərzində əcnəbi tələbələr əməliyyatlarda, sarğıların qoyulmasında, pasiyentlərin müayinə və müalicəsində yaxından iştirak edəcəklər.

# Dağınıq skleroz xəstəliyinə dair seminar keçirilib

## Professor Aytən Məmmədbəyova: Xəstəliyin yaranması xarici mühit amilləri və irsi meyilliliyin qarşılıqlı təsiri ilə şərtlənir



**İyulun 6-da ATU-nun Tədris Terapevtik Klinikasında Nevrologiya kafedrası Şüa diaqnostikası və şüa terapiyası kafedrası ilə birgə rezidentlər üçün növbəti seminar təşkil edib.**

Seminarı giriş sözü ilə açan Rezidentura və magistratura şöbəsi müdirinin müavini, assistent Namiq Xəlilov tədbir iştirakçılarını salamlayaraq ənənəvi qaydada keçirilən seminarların rezidentlər üçün faydasından söhbət açıb. O qeyd edib ki, rezidentlərin elmi fəaliyyəti universitet rəhbərliyinin diqqət mərkəzindədir və indiyədək təşkil olunan bütün seminarlar tibbin ən aktual sahələrini əhatə edib. N.Xəlilov universitetin iki kafedrasının birgə seminarında "Dağınıq skleroz" və "Dağınıq sklerozun diaqnostikasında MRT-nin rolu" mövzularında təqdim edilən məruzələrin də maraqla qarşılanacağına əminliyini bildirib.

Sonra məruzəçilərə söz verilib. "Dağınıq skleroz" (DS) xəstəliyi barədə məlumat verən Nevrologiya kafedrasının müdiri, professor Aytən Məmmədbəyova slaydla adıçəkilən mövzunu diqqətə çatdırıb. O bildirib ki, bu, sinir sisteminin iltihabi xəstəliyidir və sinir hüceyrələrinin örtük qişasının zədələnməsi ilə müşahidə olunur. Bu zədələnmə sinir sistemi hissələri arasında əlaqəni pozur və bunun nəticəsində bir sıra simptom və sindromlar yaranır: "Dağınıq skleroz" multifaktorial xəstəlik hesab olunur. Xəstəliyin yaranması xarici mühit amilləri (viruslar, ekoloji və coğrafi amillər) və irsi meyilliliyin qarşılıqlı təsiri ilə şərtlənir. İndiyədək xəstəliyin yaranmasına ilkin səbəb olan hər hansı bir virus aşkarlanmayıb. DS-in patogenezində immun sistemin vəziyyəti böyük əhəmiyyətə malikdir".

Professor xəstəliyin kliniki təzahürləri barədə qeyd edib ki, xroniki, vaxtaşırı kəskinləşmə ilə keçir və pasiyentlərin müxtəlif dərəcədə əlilliyinə səbəb olur: "DS əksər hallarda 20-40 yaşda başlayır, lakin bəzi hallarda uşaq və yaşlı insanlarda da ola bilər. Xəstəliyə kişilərə nisbətən gənc qadınlarda üç dəfə daha çox tezliklə təsadüf edilir. Xəstəliyin patoqnomonik göstəriciləri mövcud deyil. Əksər hallarda bu diaqnozun təsdiq edilməsinə xəstəliyin remissiya və kəskinləşmə ilə müşayiət edilən yavaş proqressivləşməsi və klinik polimorfizmi əsas verir. Anamnezində 20 il və daha artıq dağınıq sklerozla xəstə olan şəxslərin populyasiyasında ümumi populyasiya ilə müqayisədə orta yaşam müddətinin 6-7 il qısalması qeyd olunur. Ölüm 50-70% hallarda bu xəstəliklə əlaqəli olur. Xəstəliyin başlanmasından 10 il sonra pasiyentlərin 30-37%-i yalnız başqasının köməyi ilə hərəkət edir. 20 ildən sonra isə xəstələrin 60%-i sərbəst hərəkət edə bilmir".

A.Məmmədbəyovanın sözlərinə görə, dağınıq skleroz zamanı istənilən nevroloji əlamət müşahidə oluna bilər. Spesifik simptomlar (hissi pozulmalar, kəskin və xroniki ağrılar, əzələ zəifliyi, əzələ spazmları, koordinasiya, nitq pozulması, görmə problemi, yorğunluq hissi və s.) zədələnmə ocağının mərkəzi sinir sistemində yerləşdiyi yerdən asılıdır: "DS zamanı ən çox rast gələnən piramid traktın zədələnməsidir – 90% və bu, xəstələrin əlilliyinin əsas səbəbidir. Aşağı ətraflar yuxarı ətraflara nisbətən daha çox zədələnirlər. Spastiklik çox vaxt parezlərdən daha qabarıq olur. Hissiyyatın pozulmasına xəstələrin 85-90%-də rast gəlinir. Erkən mərhələlərdə paresteziyalar, dizesteziyalar, ağrı hissinin mozaik pozulması, vibrasion hissiyyatın enməsi müşahidə edilirsə, daha gecikmiş mərhələlərdə səthi və proprioseptiv hissiyyatın naqil və nadir hallarda seqmentar pozuntuları aşkar edilir".

Məruzəçi çıxışında bildirib ki, müxtəlif coğrafi xüsusiyyətləri olan məkanlarda xəstəliyin yayılması 100 min əhaliyə 2-200 nəfər təşkil edir: "Ekvatordan uzaqlaşdıqca, dağınıq sklerozun yayılmasında artım müşahidə edilir. Bundan ölüm halları yüz min əhaliyə 2 nəfər təşkil edir. 50% hallarda ölümün səbəbi pnevmoniya və sidik yollarının infeksion xəstəlikləri kimi ağırlaşmalar olur. DS-in inkişafında həm xarici faktorlara (virus infeksiyaları, insolyasiya, D vitamini çatışmazlığı, tütünçəkmə, mikrobiotanın vəziyyəti), həm də bu xəstəliyə genetik meyillilik ilə əlaqəli olan immun tolerantlığın pozulmasına əhəmiyyət verilir".



Şüa diaqnostikası və şüa terapiyası kafedrasının əməkdaşı, həkim-radioloq Gülər Qorçiyeva dağınıq sklerozun diaqnostikasında MRT-nin rolu ilə bağlı deyib ki, bu xəstələrin müalicəsi dövlətimizin nəzarətindədir. Prezident İlham Əliyevin ölkədə dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair imzaladığı Dövlət Proqramında bildirilir ki, il ərzində ölkədə hər yüz min nəfər əhaliyə 3-4 xəstələnmə hadisəsi qeydə alınır. Statistik məlumatlara görə isə, hazırda dünya üzrə dağınıq sklerozdan əziyyət çəkən xəstələrin sayı 2 milyondan artıqdır: "MRT-nin DS-in diaqnozunda mühüm rolu var. Çünki MRT çoxsaylı lezyonları göstərə bilər - onların bir çoxu ilk təqdimat zamanı klinik olaraq gizlidir və MRT təqib skanlarında yeni lezyonları yeni simptomların meydana gəlməsindən xeyli əvvəl göstərə bilər. DS-in erkən diaqnozu müalicəyə daha erkən başlamağa imkan verir və proqnozu yaxşılaşdırır. Xəstənin kliniki olaraq DS-dən şübhələndiyi zaman belə, biz hələ də bu lezyonların təsadüfi yaşa bağlı tapıntılar deyil, həqiqətən də DS-ə işarə edib-etmədiyinə qərar vermək üçün dərin ağ maddəni diqqətlə öyrənməliyik.

Əgər xəstədə klinik olaraq DS-dən şübhə varsa və MRT şəkilləri bu diaqnozu dəstəkləyirsə, o zaman digər xəstəlikləri nəzərə almamalısınız. Əgər xəstədə kliniki olaraq DS-dən şübhələniriksə və çoxsaylı ağ maddə lezyonları tapılıbsa, DS və kiçik damar xəstəliyini bir-birindən differensasiya etməli və yaxud DS-dən şübhələnmiriksə və təsadüfən ağ maddə lezyonları aşkarlanıbsa, dağınıq skeleroz haqda düşünməliyik".

Həkim əlavə edib ki, MRT görüntülərində qeyri-normal təzahürlər aşkar edildikdə, həkim adətən təfsilatlı tibbi anamnezi toplayır və nevroloji müayinə aparır: "RİS asimptomatik olduğuna görə, bir çox hallarda dəqiq diaqnostika çətin ola bilər. Həkim, eləcə də onurğa beyni mayesinin analizini yoxlaya bilər. Oxşar simptomların digər ehtimal edilən səbəblərini inkar etmək üçün qan analizləri aparılması mümkündür. RİS olan pasiyentlər onlarda prosesin DS-ə doğru inkişaf etməsini inkar etmək üçün vaxtaşırı müayinələrdən keçməlidir. RİS-in müalicəsi tələb olunmur, amma mütəmadi müayinələr aparılmalıdır".

Rezidentlərin marağına səbəb olan seminarın sonunda məruzəçilər onların suallarını cavablandırıb.

Tədbirdə Tədris Terapevtik Klinikanın baş həkimi Fəridə Hacıyeva, eləcə də hər iki kafedranın əməkdaşları və həkim-rezidentlər iştirak edirdilər.

**M.ƏLƏKBƏRLİ**

# 35 tələbə magistr dərəcəsinə layiq görülüb

## Magistratura təhsil pilləsində yay sessiya imtahanları və dissertasiya müdafiələri yekunlaşıb

**Azərbaycan Tibb Universitetində magistratura təhsil pilləsində iyunun 1-dən başlanan yay sessiya imtahanları iyulun 7-də yekunlaşıb. Proses zamanı 5 əsas (Əczaçılıq, Klinik (Tibbi) psixologiya, Menecment (səhiyyə sahəsi üzrə), Mikrobiologiya və Biokimya) ixtisas olmaqla, 5 alt ixtisaslaşma (Əczaçılıq kimyası, Farmakoqnoziya, Toksikoloji kimya, Əczaçılıq texnologiyası, Əczaçılığın təşkili) üzrə I kurslarda toplam 55 fəndən imtahanlar keçirilib.**



Bunlardan 6-sı Əczaçılıq kimyası ixtisasına aiddir. Həmin fənlər Kimyəvi birləşmələrdə "quruluş-fəallıq", Dərman maddələrinin standartlaşdırılması, Əczaçılığın tarixi və metodologiyası (test), Kimyəvi dərman maddələri, Əczaçılıq analizində fiziki-kimyəvi və kimyəvi üsullar, Dərman maddələrinin metabolizmidir.

Farmakoqnoziya ixtisasından da 6 fənn üzrə imtahanlar olub: Bitki xammalının fitokimyası, Bitki ehtiyatşünaslığı, Əczaçılığın tarixi və metodologiyası (test), Fitoterapiya, Heyvan və mineral mənşəli dərman xammalları və Bitki xammalının diaqnostikası.

Magistrantlar yay sessiyasında Toksikoloji kimya ixtisası üzrə Bitki və heyvan mənşəli maddələrin kimyəvi-toksikoloji analizi, Ksenobiotiklərin metabolizm reaksiyaları, Əczaçılığın tarixi və metodologiyası (test), Sintetik üzvi zəhərli maddələrin kimyəvi-toksikoloji analizi, Analitik kimya, Qeyri-üzvi zəhərli maddələrin kimyəvi-toksikoloji analizi fənlərindən də imtahan veriblər.

Əczaçılıq texnologiyası ixtisası üzrə imtahanlar isə Biotexnologiya, Fitopreparatların texnologiyası, Əczaçılığın tarixi və metodologiyası (test), Homeopatik preparatların texnologiyası, Əczaçılıq bioetikası, Müalicəvi kosmetoloji dərman vasitələri fənlərindən keçirilib.

Cari yay sessiyasında Əczaçılığın təşkili ixtisasından Əczaçılığın əmtəəşünaslığı, Əczaçılığın iqtisadiyyatı, Əczaçılığın tarixi və metodologiyası (test), Əczaçılıq marketinqi, Əczaçılıq menecmenti, Bitki mənşəli parafarmasevtik vasitələrin texnologiyası fənləri üzrə də magistrantların bilikləri yoxlanılıb.

Rezidentura və magistratura şöbəsinin müdir müavini, baş müəllim Əfsanə Məmmədovanın verdiyi məlumata görə, həmçinin Klinik (tibbi) psixologiya ixtisası üzrə magistrantlar Asılılıq psixologiyası, Statistikanın əsasları, Psixoloji müayinənin əsasları: konsultasiya, diaqnostika, hesabatın tərtibi, Koqnitiv psixologiya, Psixopatologiya və Psixi pozuntular fənlərindən sınağa çəkilib.

Menecment (səhiyyə sahəsi üzrə) ixtisası üzrə imtahanlar 9 fənni - Səhiyyə müəssisələrində risklərin idarəolunması, Tədqiqat işinin aparılması, Səhiyyə xidmətlərinin təşkili və idarəolunması, Təşkilati davranış, Səhiyyədə marketinq, Tibbi sığorta, Səhiyyə qanunvericiliyi, Səhiyyədə insan resurslarının idarəolunması və Ekoloji sağlamlığa giriş fənlərini əhatə edib.

Biokimya ixtisası üzrə imtahanlar da 9 fənn üzrə aparılıb. Bu ixtisas qrupuna Zülal və nukleoproteinlərin metabolizmi, Oksidativ stress və antioksidantlar, Vitaminlər və mikroelementlər, Enzimologiya, Apoptoz və biomarkerlər, Biokimyəvi tədqiqat üsulları, Biokimyəvi tənzim mexanizmləri, Reseptorlar və hüceyrələrarası münasibət, Membranologiya və nəqlolunma sistemləri fənləri daxildir.

Yay sessiyasında magistrantlar Mikrobiologiya ixtisasından 5 fənn - Klinik mikrobiologiya, Bakteriologiya, Tibbi parazitologiya, Mikologiya, Virusologiya fənləri üzrə də imtahan sınağından keçiblər.

İxtisaslar üzrə əsas fənlərdən imtahanlar ənənəvi (bilet üzərindən) şifahi canlı formatda müvafiq kafedralarda təşkil olunub. Yalnız Əczaçılıq ixtisası üzrə tədris olunan Əczaçılığın tarixi və metodologiyası fənnindən imtahan test üsulu ilə Virtual test mərkəzində reallaşıb.



Həmçinin magistratura təhsil pilləsində 2022-2023-cü tədris ilində II kursu bitirən 35 nəfər magistrant müvafiq ixtisaslaşdırılmış müdafiə şuralarında dissertasiya işlərini müdafiə edərək magistr dərəcəsinə layiq görülüblər. Onlardan 33 nəfər yerli, 2 nəfər isə əcnəbi vətəndaşdır. Universitetimizdə magistr dissertasiyaları plagiat proqramında yoxlanılıb və nəticələr qənaətbəxşdir.

Qeyd edək ki, 2023-cü il buraxılışında 16 nəfər Əczaçılıq (onlardan 4 nəfər Əczaçılıq kimyası, 3 nəfər Toksikoloji kimya, 3 nəfər Farmakoqnoziya, 3 nəfər Əczaçılıq texnologiyası, 3 nəfər Əczaçılığın təşkili), 9 nəfər Klinik (tibbi) psixologiya, 10 nəfər isə Menecment (səhiyyə sahəsi üzrə) ixtisasları üzrə məzun olublar. Məzunlarımızdan 33 nəfər fərqlənmə, 2 nəfər adi diploma ATU-nun magistratura pilləsini bitirir.

# Sağlam həyat tərzi ürəyin dərmanıdır

**Orqanizmin əsas yükünü daşıyan ürəklə bağlı xəstəliklər hər zaman diqqət mərkəzindədir. Təəssüf ki, hələ də əksər ölkələrdə ölümlə nəticələnən xəstəliklər içərisində ürək və qan-damar xəstəlikləri üstünlük təşkil edir. Son zamanlar gənclərdə də rast gəlinən ürək problemlərindən biri isə kəskin koronar sindromudur.**



Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə klinikasının invaziv kardioloqu Aqil Allahverdiyev bildirir ki, bu sindrom ürək əzələsinin oksigenə tələbatı və təminatı arasında yaranan uyğunsuzluq nəticəsində meydana çıxır: "Ürək əzələsinin qan təchizatının pozulması nəticəsində ürəyi qidalandıran arterial damarların içərisində və divarlarında aterosklerotik düyünlər əmələ gəlir, iltihablaşır, yırtılır və ya bu damarların spazmı baş verir. Oksigen və qida maddələrinin ürək əzələlərinə çatdırılmasında iştirak edən bu arterial damarlar tıxanarsa və hüceyrələrə oksigen tədarükü pozularsa, ürək əzələlərinin hüceyrələri ölə bilər".

Kəskin koronar sindromu bəzən ani olaraq başlayır və sinədə, döş qəfəsində, döş sümüyünün arxasında - ümumiyyətlə bütün orqanizmdə güclü narahatlıq hissi yaradır. Xəstəliyin əsas əlamətləri sinə ağrısı, ümumi narahatlıq, bir və ya hər iki qolda, kürəkdə yanğı hissi, çənəyə və boyuna yayılan ağrı və diskomfort, hərəkət zamanı ağrıların kəskinləşməsidir. Bu zaman həm də halsızlıq, başgicəllənmə, tərləmə (xüsusilə soyuq tər), mədə bulanması və qusma, nəfəs darlığı və təngnəfəslik müşahidə olunur.

A.Allahverdiyev deyir ki, bu cür ciddi əlamətlər müşahidə edilərsə, dərhal təcili yardım çağırılmalı və kardioloji müayinə həyata keçirilməlidir. Çünki vaxtında edilmiş müdaxilə ilə tıxanmış damar açılır və ürək əzələsinin zədələnməsinin qarşısı alınmış olur.

Kəskin koronar sindroma zərərli vərdişlərə aludə olan, passiv həyat tərzi keçirən, daim stressə məruz qalan və qeyri-rasional qidalanan şəxslərdə daha çox rast gəlinir. Kardioloq xəstəliyin dəyişməyən risk faktorları sırasında isə qanda xolesterin səviyyəsi, irsiyyət, hipertoniya, şəkərli diabetin mövcudluğunu qeyd edir. Həkim əminliklə bildirir ki, passiv həyat tərzindən çəkinməklə və mütəmadi müayinələrdən keçməklə ürəyi qorumaq, sağlam yaşayaraq ömrü uzatmaq olar.

# Əməkdaşımız elmi-praktik regional konfransda çıxış edib

**Avropa Asiya Mama Ginekoloqlar Dərnəyi iyunun 23-25-də Quba rayonunda Səhiyyə Nazirliyinin ET Mamalıq və Ginekologiya İnstitutu ilə birgə elmi-praktik regional konfrans keçirib. Mamalığın aktual problemlərinə həsr edilmiş konfransda ATU-nun I Mamalıq-ginekologiya kafedrasının assistenti, t.ü.f.d. Sevinc İsmayılova "Hamiləlik dövründə anormal servikal sitologiya: aparılma taktikası" mövzusunda məruzə ilə çıxış edib.**

Hamiləlikdə uşaqlıq boynunun xərçəngönü xəstəliklərinin diaqnostika və müalicə taktikasının klinisist həkimlər üçün çətinlik yaratdığını söyləyən məruzəçi bildirib ki, hamilələrin uşaqlıq boynu xəstəliklərinin diaqnostikası, müalicəsi, doğuş taktikasının seçilməsi və hamilələrin monitorinqi haqqında məlumatlar ədəbiyyat və elmi-praktik tövsiyələrdə kifayət qədər işıqlandırılmır. Onun sözlərinə görə, hamilələrdə uşaqlıq boynu xərçənginin erkən mərhələlərdə aşkarlanması ümumi populyasiya ilə nisbətdə 3 dəfə yüksəkdir: "Qadınlarda uşaqlıq boynunun sitoloji skrininqinin təşkilinin qeyri-müntəzəm olması, uşaqlıq boynunun xoşxassəli xəstəlikləri, o cümlədən servikal intraepitelial neoplaziyalar ilkdoğan qadınlarda bir çox hallarda ilk dəfə hamiləlik müddətində aşkarlanır. Dünyada qəbul olunmuş standartlara əsasən, hamilə qadının ilk həkim qəbulunda uşaqlıq boynunun sitoloji müayinəsi aparılmalıdır. Belə bir yanlış fikir yaranıb ki, servikal fırçanı endoserviksə daxil etdikdə uşaqlıq boynuna əlavə zədə törədilir, bu da hamiləliyin gedişinə təhlükə yarada bilər. Sitoloji müayinənin kolposkopiya ilə yanaşı aparılması 2 məsələni həll etməyə kömək edir. Sitoloji müayinə zamanı əhəmiyyət kəsb etməyən nəticələr olduqda, kolposkopiya müayinəsi gizli ağır dərəcəli displaziyaları aşkar etməyə kömək edir, əhəmiyyət kəsb edən nəticələri aldıqda isə kolposkopiya gələcək taktikanın seçimində yardımçı olur".

Həkim-ginekoloq onu da diqqətə çatdırıb ki, hamiləlik müddətində servikal patologiyalar aşkar olduqda, bu problemlərə aqressiv yanaşmaq lazım deyil, ağır cərrahi manipulyasiyalar, məsələn, endoservikal küretaj aparmaq məsləhət görülmür: "Bu yanaşma gələcək analar üçün çox böyük stresdir. Son illər ərzində hamilədə CIN 2,3 patologiyası aşkarlandıqda, aqressiv müalicə taktikası konservativ-gözləmə taktikası ilə əvəz olunub. Bir sıra tədqiqatlara əsasən, uşaqlıq boynunun ekssiziyası vaxtından qabaq doğuşların riskini artırır, tədqiqatçıların digər qismi isə ekssiziyanın heç bir mənfi təsirinin olmamasını qeyd edir. Buna baxmayaraq, Tibbi Onkologiyanın Avropa cəmiyyəti ekssizion biopsiyanı təhlükəsiz




müayinə metodu hesab edir. Amerika kolposkopiya və uşaqlıq boynunun patologiyası Cəmiyyəti 2011-ci ildə bir neçə tövsiyə tərtib edib. Həmin tövsiyələrə görə, gənc hamilə qadınlarda CIN II-III diaqnozu təsdiqləndikdə, daimi diqqətli müşahidənin aparılması optimal sayılır və ekssiziya yalnız uşaqlıq boynu xərçənginə şübhə olduqda aparılır".

Konfrans iştirakçılarının mövzuya aid suallarını da cavablandıran S.İsmayılova, müasir dövrdə hamilələrdə uşaqlıq boynunun displaziyalarına diaqnostik və müalicəvi yanaşma taktikasının dünya ölkələrində əhəmiyyətli dərəcədə fərqləndiyini vurğulayıb.

# Psixoaktiv maddələrdən asılılıq təkcə tibbi deyil, həm də ictimai problemdir

**Müasir dövrümüzün ən böyük problemlərindən biri el arasında "ağ ölüm" adlandırılan narkomaniyadır. "Əsrin bəlası" barədə suallarımızı cavablandıran müsahibimiz - ATU-nun Psixiatriya kafedrasının dosenti Araz Manuceri bildirib ki, "narkomaniya", "narkoman" və "həkim-narkoloq" sözləri artıq rəsmi təbabətdə, diaqnostikada, xəstəliklərin beynəlxalq təsnifatında işlənmir:**

## Araz Manuceri: Əksər hallarda hətta epizodik istifadə də sonradan xroniki xəstəliyə keçir

"Belə bir anlayış hələ Azərbaycanda qalıb. İnkişaf etmiş ölkələrdə isə bu, psixoaktiv maddələrdən asılılıq və ya addiksiya, bu sahə ilə məşğul olan mütəxəssislər isə həkim-psixiatr adlanır. Bütün dünyada qəbul olunmuş bir termindir. Yəni narkologiya psixiatriyanın bir hissəsidir. Bunları biri-birindən ayırmaq düzgün deyil. Asılılıq halları elmi cəhətdən 2 qrupa - kimyəvi və qeyri-kimyəvi addiksiyaya bölünür. Kimyəvi addiksiyaya alkoqolizm, müxtəlif psixoaktiv maddələrdən asılılıq, qeyri-kimyəvi addiksiyaya isə qumar oyunları, internet, qida, şopinq, başqa cinsdən asılılıq və s. aiddir. Bu hallarda insanın beynində, davranışında, psixologiyasında və bədənində gedən biokimyəvi proseslər eynidir, heç bir fərqi yoxdur. Hər ikisində dofamin, adrenalin, noradrenalin, eləcə də opiat reseptorları aktiv iştirak edir".

Mütəxəssisin sözlərinə görə, bütün asılılıqların 3 əsas mərhələsi var. Əvvəlcə qəbul edilən maddəyə qarşı orqanizmdə tolerantlıq, bundan sonra fiziki və psixoloji asılılıq yaranır: "Fiziki asılılıq zamanı ürəkdöyünmə, başgicəllənmə, sümüklərdə, oynaqlarda, bədəndə dözülməz ağrılar, qusma, diarreya və yaxud qəbizlik baş verir, xəstənin təzyiqi qalxır, düşür, yuxusu pozulur. Daha sonra psixoloji asılılıq əmələ gəlir. Yəni alkoqoldan asılı olan insan səhər-səhər durub 50-100 qram içməsə, öz işini görə bilməz. Alkoqol ilk növbədə onun fiziki tələbatını ödəyir. İkincisi, beyində opiat reseptorları ilə ünsiyyətə girərək həyəcan, təşviş, qorxu hissini aradan qaldırır. Narkotiklər də bu cür təsir göstərir. Həmçinin müxtəlif psixoaktiv maddələrin növündən asılı olaraq, əsas simptomlar da müddətinə, dərinliyinə və ağırlıq dərəcəsinə görə fərqlənir. İstər alkoqollu içkilərdən, istərsə də psixoaktiv maddələrdən epizodik istifadəni asılılıqdan ayırmaq lazımdır. Eyni zamanda unutmamalıyıq ki, əksər hallarda hətta epizodik istifadə də yavaş-yavaş xroniki xəstəliyə keçir. Neçə müddətdən sonra istifadənin xəstəliyə keçməsi narkotikin növündən, şəxsiyyətin invidiual psixoloji, fiziki, sosial durumundan, mühitindən, ətrafından, sosial mövqeyindən asılıdır. Psixostimulyatordan istifadə daha tez asılılıq yaradır. Ən tez asılılıq yaradan maddə isə tütündür".



Bu xəstəliyin necə müəyyən edilməsi və müalicəsinin necə həyata keçirilməsinə də aydınlıq gətirən dosent A.Manucerinin sözlərinə görə, xəstə tam müayinədən keçəndən sonra özü şikayət edirsə, bu, diaqnozu asanlaşdırır. Əvvəlcə onun tolerantlığı, fiziki və psixi asılılığı araşdırılır: "Bədəndə psixoaktiv maddəni tapmaq və yaxud ekspertiza aparmaq üçün qan analizindən az hallarda istifadə olunur. Ekspertiza suallarında, bədəndə narkotikin təyin edilməsində daha çox sidik analizinə üstünlük verilir. Həmçinin saçdan, dırnaqdan, tüpürcəkdən analiz götürməklə də hansısa şəxsin narkotikdən istifadə edib-etmədiyini öyrənmək olar. Xüsusi dərmanlar vasitəsi ilə aparılan başqa bir üsul da var. Belə ki, həmin dərmanlar narkotiklə, alkoqolla patoloji bir reaksiyaya girərək xəstədə ağır aclıq sindromu yaradır. Əlbəttə, müalicə tam mümkündür, amma ağır prosesdir. Müalicə prosesində xəstənin özünün sağalmağa çalışması da çox vacibdir.

Əvəzedici müalicə üsulu kimi Azərbaycanda metadon proqramı da həyata keçirilir. Proqramın tələbinə əsasən, həkim xəstəyə 1-ci dozanı təyin edir, bir müddətdən sonra dozanı tədricən azaldır. İdeal halda xəstə narkotikdən uzaqlaşır. Bunlar yaxşıdır, amma əsas müalicə üsulu psixoterapiyadır. Təəssüflər olsun ki, Azərbaycanda dövlət reabilitasiya mərkəzləri yoxdur. Bir neçə özəl reabilitasiya mərkəzində xəstələr uzun müddət qalaraq xüsusi terapiya keçirlər. Bu prosesdə həkimlər, psixoloqlar və artıq sağalmış keçmiş narkotik istifadəçiləri iştirak edirlər".

Müsahibimiz psixoaktiv maddələrdən asılılığın təkcə tibbi deyil, həm də ictimai, sosial problem olduğunu diqqətə çatdırıb. Ayrı-ayrı cəmiyyətlərin eyni problemə fərqli münasibətindən bəhs edən həkim, Kanada, Almaniya, qonşu Gürcüstanda marixuananın qadağan edilmədiyini, eləcə də bəzi ölkələrdə dağınıq skolioz, epilepsiya, ağır onkoloji, şəkər xəstələrinə, ağır depressiyada olanlara marixuanadan dərman kimi istifadəyə icazə verildiyini bildirib.

Həkim-psixiatr psixoaktiv maddələrdən asılılıqdan müalicə olunanların eyni mühitə, eyni adamların yanına qayıtmamasını tövsiyə edir. Onun sözlərinə görə, reabilitasiya prosesi keçən xəstələrin hara, kimin yanına qayıtması, hansı işlə məşğul olacağı çox önəmlidir.

**A.KAMRANOĞLU**

# Uşaq və yeniyetmələrin sağlamlığı ilə məşğul olan kafedra

## Burada tədris prosesi ilə yanaşı, elmi tədqiqatlar da aparılır



**Gənc nəslin sağlamlığının mühafizəsi və möhkəmləndirilməsi, fiziki və psixi həmahəngdə insan yetişdirilməsi və eləcə də istehsalat mühitində insanların sağlamlığının qorunması sahəsində fəaliyyət göstərən ATU-nun Uşaq-yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı kafedrası universitetimizin həyatında mühüm rol oynayır.**

Kafedranın keçdiyi inkişaf yolu və hazırkı təlim-tədris prosesi barədə məlumat verən kafedranın müdiri, dosent Şəhla Balayeva bildirib ki, əsası 1930-cu ildə qoyulan bu kafedra tarixin müxtəlif dönəmlərində bir sıra adlar altında fəaliyyət göstərib. 2018-ci ildən isə hazırkı adını daşıyır: "Son illər ərzində universitet rəhbərliyinin qayğısı nəticəsində kafedranın maddi-texniki bazası xeyli yaxşılaşıb və tədrisin yüksək səviyyədə aparılması üçün bir sıra işlər görülüb. Kafedrada iki elmi laboratoriya (Əmək gigiyenası və Uşaq-yeniyetmələr gigiyenası) və konfrans zalı yaradılıb. Bütün növ mebellər təzələnib, mühazirə və konfrans zalları, laboratoriyalar proyektorlarla təchiz edilib. Hər bir müəllimə kompüter verilib ki, bu da tədrisin daha yüksək səviyyədə təşkilinə, tələbələrin fənnə marağının artırılmasına kömək edir".

Ş.Balayevanın sözlərinə görə, laboratoriyalarda tələbələrə bacarıqları öyrətmək üçün bütün şərait yaradılıb. Burada uşaq və yeniyetmələrin sağlamlığı və əmək sağlamlığı elm sahələri üzrə İctimai səhiyyə fakültəsinin Tibbi profilaktika, İctimai səhiyyə, Tibb bacısı işi və Fizioterapiya və tibbi reabilitasiya ixtisaslarının III, IV, V və VI kurslarında 10 əsas və 3 seçim fənni üzrə 2 dildə (Azərbaycan və rus) tədris aparılır. Kafedra əməkdaşlarının əsas məqsədi uşaq və yeniyetmələrin fiziki inkişafını və sağlamlığını möhkəmləndirməyə imkan yaradan tərbiyə və tədrisin sanitar-gigiyenik şəraitini kompleks şəkildə hazırlamaqdan ibarətdir.

Kafedra müdiri əlavə edib ki, tədris prosesində materialların tələbələrə əlçatanlığını artırmaq məqsədilə son illər bir çox işlər görülüb: "Tədris edilən hər bir fənn üzrə proqram tanınmış xarici ali təhsil müəssisələrinin ədəbiyyat və proqramlarından istifadə edilməklə hazırlanıb və hər mövzu üzrə metodik işləmələr elmi yeniliklərə uyğun təzələnib. Son 10 il ərzində Azərbaycan dilində 7 dərslik nəşr edilib. Mühazirə və təcrübə dərslərinin materialları tədris-metodik işləmələr şəklində hazırlanaraq məşğələlərdə tələbələrə təqdim olunur. Dərsliklərin və mühazirələrin elektron variantları ATU-nun rəsmi saytında kafedramızın tədris səhifəsində fənlər üzrə yerləşdirilib. Bundan əlavə, bütün mühazirələrin videoları ets.amu.edu.az bölməsində əksini tapıb".

Bütün bunlarla yanaşı, kafedrada elmi-tədqiqat işlərinə də böyük önəm verilir, iki istiqamətdə elmi tədqiqatlar yerinə yetirilir: "Bunlardan biri uşaq-yeniyetmələrin sağlamlığının qorunması və möhkəmləndirilməsi işidir. Bu məqsədlə kafedranın müəllim heyəti Təhsil Nazirliyinin xətti ilə bir sıra müəssisələrdə (tam orta təhsil məktəbləri, lisey və gimnaziyalar, ilkin peşə təhsili və məktəbəqədər müəssisələr) müşahidələr aparır, tədris-tərbiyə şəraitini, təhsilalanların fiziki-psixi inkişafını, sağlamlıq vəziyyətini tədqiq edir. Digəri isə istehsalatda çalışan işçilərin sağlamlığının qorunması üzrə elmi tədqiqatlardır. Aparılan tədqiqatların nəticələri əsasında əməkdaşlar uşaq və yeniyetmələrin, işləyən əhalinin sağlamlığına təsir edən problemlərin aradan qaldırılması üzrə məsləhətlər və metodik tövsiyələr, elmi məqalə və tezislər hazırlayır, konfranslarda çıxışlar edirlər".

Ş.Balayeva kafedranın kadr potensialından, müdafiə işlərindən, müxtəlif beynəlxalq qurumlarla əməkdaşlıqdan və gələcək planlardan da bəhs edib: "Hazırda 15 əməkdaşımızdan 1 nəfər məsləhətçi-professor, 7 nəfər t.ü.f.d., dosent, 1-i baş müəllim, 2-si baş laborant, 2-si laborant, 1-i baş preparator, 1-i isə preparator vəzifəsində çalışır. Müdafiə işlərinə gəldikdə isə, hazırda 2 doktorant elmi-tədqiqat işini yerinə yetirir. İndiyədək kafedrada 5 doktorluq, 30-dan çox namizədlik dissertasiyası müdafiə olunub.

Əməkdaşlarımız Səhiyyə və Təhsil nazirlikləri, həmçinin ÜST, UNİCEF-in bir sıra layihələrində iştirak edirlər. Son 5 il ərzində tərəfimizdən 123 elmi iş dərc edilib ki, onlardan 40 məqalə beynəlxalq indeksləşdirilərək impakt faktorlu elmi jurnallarda çap olunub".

Planlar haqda danışan kafedra müdiri bildirib ki, bu il ərzində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş konfransın təşkili və bir neçə dərslik hazırlanması nəzərdə tutulur.

Məlumat üçün bildirək ki, kafedraya müxtəlif illərdə professorlar P.Kaufmann, B.Şextman, Ə.Məmmədov, V.Əliyev və B.Bağırova, dosentlər R.Orucov, M.Əfəndizadə və S.Gürzəliyev rəhbərlik ediblər. 2017-ci ildən isə kafedranın müdiri dosent Şəhla Balayevadır.

# Qonaqpərvər insanlar, Atəşgah məbədi, musiqilərimizdəki oxşarlıq

## ATU-nun hindistanlı tələbələri ölkəmiz və universitetimiz haqda ağızdolusu danışırlar

**Hindistanla bağlı söhbət düşəndə, ilk ağlımıza gələn hind filmləri və hind çayı olur. Sevə-sevə izlədiyimiz filmlərin qəhrəmanlarının vətəni həmişə bizə uzaq və ecazkar bir ölkə təsiri bağışlayıb. Amma bu gün Hindistan bizə daha yaxındır. Belə ki, hindistanlı tələbələr Azərbaycan Tibb Universitetində təhsil alır, Azərbaycanda yaşayırlar.**





Ölkəmizlə və universitetimizlə bağlı təəssüratlarını bizimlə bölüşən tələbələrdən biri Şoaib Ul Başardır. O, II Müalicə-profilaktika fakültəsinin 1-ci kurs tələbəsidir. Hindistanın Kəşmir şəhərində anadan olub: "Uşaqlıqdan arzum xaricdə təhsil almaq olub. Buna görə internetdə axtarış etdim. Azərbaycandakı universitetlərin qiymətləri və şərtləri ilə maraqlandım. Gördüm ki, digər ölkələrə nisbətən sizdə şərtlər qaneedicidir. Tibb Universitetini bitirən məzunların şərhlərində universitet və müəllimlərlə bağlı müsbət fikirlərə rast gəldim. Həm də adət-ənənələrimizdə, mədəniyyətimizdə oxşarlıq olduğu üçün Bakını seçdim. İnsanlarınız çox qonaqpərvər, səmimi və mehribandırlar".

Şoaib Ul Başar internetdə Azərbaycan haqda maraqlananda "Atəşgah məbədi" Dövlət Tarixi-Memarlıq Qoruğu diqqətini çəkib. Elə Bakıya gələn kimi, hindistanlı bir professorla oranı ziyarət edib. Ziyarətdən çox razı qalıb: "XVII-XVIII əsrlərə aid olan bu məbədi xeyli turistlərin ziyarət etdiyinin şahidi oldum. Məbədin ortasında alov yanır və çoxlu heykəllər var. Zərdüştilər, hinduslar və siqhlər tərəfindən ibadətgah kimi inşa edilmiş bu məbəd məndə xoş duyğular yaratdı. İçərişəhərdə, Şirvanşahlar sarayında, Qız qalasında da olmuşam. Çox möhtəşəmdirlər. Bu tarixi abidələr sizin xalqın qədimliyindən xəbər verir. Ümumiyyətlə, Bakının o hissəsində olanda hiss edirsən ki, çox qədim bir məkana düşmüsən".

Kəşmir xalçaları, naxışlar və işlətdiyimiz mebellər arasında oxşarlıqdan danışan Şoaib, sözlərimizdə də bənzərliyin olduğunu qeyd etdi. Buna misal olaraq, "tələbə", "məktəb" sözlərini misal çəkdi.

Tibb Universitetini seçməsindən çox razıdır. Deyir ki, müəllimlər təcrübəlidir və həvəslə onlara elm öyrədir, hər məsələdə kömək etməyə çalışırlar.

Keişna Kannan da Şoaiblə eyni kursda oxuyur. Hindistanın cənubundan, Karlade şəhərindəndir: "Mən də tələbə yoldaşım kimi, xarici ölkələrin ali məktəblərinin şərtləri ilə maraqlanmışdım. Münasib bildiyim Azərbaycan Tibb Universiteti olduğundan buranı seçdim. Dərslər başlamamışdan öncə tələbə yoldaşlarımla Qusara getdik, Şahdağda olduq. Dağların şahının zirvəsinə qalxıb, 4243 metr hündürlükdən Azərbaycanı seyr etdim. Oradan hər yan görünür, gözəl mənzərəsi var ölkənizin. Düzdür, mən sürüşmədim, amma xizəklə sürüşənlərə xeyli tamaşa etdim. Oranı görəndə Kəşmir yadıma düşdü. Çünki Kəşmirdə də xizəksürənlər üçün belə bir yer təşkil ediblər".

Danışdıqca hiss edirsən ki, Keişna Azərbaycan haqqında kifayət qədər məlumatlıdır. Ölkəmizdə memarlıq və idman sahəsinin inkişafından, Bakıda "Formula-1" yarışlarının keçirilməsindən, milli musiqimiz və musiqi alətlərindən də danışdı: "Milli musiqi alətlərinizdə bir ecazkarlıq var. Sazınız, kamanınız, tarınız ayrı bir aləmdir. Musiqilərimizdə oxşarlıq hiss edirəm. Özüm yaxşı klassik hind rəqsləri oynayıram. Hind aktyorlarından Şahrux Xan, Şaşi Kapurun ifa etdiyi rolları çox bəyənirəm.



Gələndən özümə universitetdə rəfiqə də tapmışam. Başqa qrupun nümayəndəsidir, adı Nuridir. Çox mehribanıq. Mənə bilmədiyim şeyləri izah edir. Qanım ona çox qaynadı. Yaxşı haldır ki, universitetdə çoxlu xarici tələbələr təhsil alır. Müəllimlərimdən də çox razıyam. Onlardan "Anatomiya" fənnini tədris edən Rəna, "Sitologiya"dan Günel, ingilis dilindən isə Sura müəllimələrin adlarını çəkə bilərəm".

**Q.ZİMİSTANOĞLU**

# "Stomatologiyada hər millimetr önəmlidir"

## İraqlı tələbəmiz Həcər Şamil rəqəmsal stomatologiyanı sevərək öyrənir




Stomatologiyanın hansı istiqamətdə inkişaf edəcəyini bu günün stomatoloq-tələbələrinə söyləməyə ehtiyac yoxdur. Onlar artıq bilirlər ki, gələcək dövr rəqəmsal texnologiyalarla sıx bağlı olacaq və buna görə də daha çox onu öyrənməyə can atırlar.

Həcər Şamil Azərbaycan Tibb Universitetinin Stomatologiya fakültəsinin V kurs tələbəsidir. Əslən İraqın Nəsiriyyə şəhərindən olan Həcər deyir ki, CAD/CAM texnologiyasını öyrənməklə, stomatologiyada yeni bir dünyanı kəşf edib - detalların diqqət mərkəzində olduğu və pasiyentlərin faydalana biləcəyi bir dünya.

**- Niyə məhz stomatologiyanı öyrənməyə qərar verdiniz?**

- Mən bu sahənin tibbi hissəsini və anatomiyasını sevirəm. Həmişə biologiya ilə maraqlanmışam. Ağız boşluğu model kimi hər zaman yanımızdadır. Bu, elmi, real və sınaqdan çıxmış bir sahədir. İkincisi, insanlarla ünsiyyətdə olmağı çox sevirəm. Stomatologiyada xəstələrlə işləmək üçün bu cəhətdən xüsusi bacarığınız olmalı və onlarla necə danışacağınızı bilməlisiniz. Son səbəb isə detallardır. Mən hər bir işdə dəqiqliyi sevirəm, stomatologiyada isə hər millimetr önəmlidir.

**- Rəqəmsal stomatologiyanı ilk dəfə nə vaxt kəşf etdiniz?**

- İlk təcrübəm universitetdə ikinci kursda olub. Mən stomatoloji fantom tədris otağında idim. 3D rəqəmsal kompüter tomoqrafiyası kursu üçün elan gördüm. Mənə çox maraqlı gəldi. Biz yalnız ənənəvi metodları öyrənirdik və heç vaxt təsəvvür edə bilməzdim ki, rəqəmsal texnologiya stomatologiyada da tətbiq edilə bilər. Lakin sonra COVID-19 pandemiyası ilə əlaqədar kurs ləğv edildi. İki il sonra mən ATU-nun Tədris Stomatoloji Klinikasında xarici tələbələr üçün təşkil olunan 3D KT kursunda iştirak etdim, fərdi kurs keçdim və bu heyranedici idi. Biz çənə sümüyünü 3D formatda görür və çox dəqiq diaqnoz qoya bilirdik. Dördüncü kursda olmağıma baxmayaraq, kurs zamanı implantlar, implantasiya üçün cərrahi şablonların hazırlanması və mandibular sinirin yerinin necə təyin edilməsi haqqında mənə çox şey öyrətdilər. İnsanlar məndən nə ilə maraqlandığımı soruşduqda, "rəqəmsal stomatologiya" deyə cavab verirəm. Bu çox maraqlıdır.

**- Rəqəmsal stomatologiya haqqında daha çox məlumatı necə topladınız?**

- Əvvəlcə əsasən internetdən. İndi həyatımızın hər bir sahəsi rəqəmsallaşır. Rəqəmsal stomatologiyanın imkanlarını gördüm və fikirləşdim ki, bu sahədə davam edim. İnternetdə axtarış edərkən insanların, sözün əsl mənasında, təbəssümlər hazırladığı "bənövşəyi proqram"ı - EXOCAD-ı kəşf etdim. Mən həmişə diş həkimlərinin "Biz gülüş dizaynı edirik" dediyini eşitmişdim, lakin EXOCAD ilə siz həqiqətən gülüş dizaynı hazırlayırsınız. Mən o zaman uşaq stomatologiyası üzrə elmi rəhbərlərimdən biri ilə danışırdım və o mənə universitetimizin nəzdində olan CAD/CAM Rəqəmsal Diş Laboratoriyası ilə əlaqə saxlamağı və orada bir az təlim keçməyimi təklif etdi. Mən razılaşdım!

**- Məhz o zaman EXOCAD proqramı ilə ilk tanışlığınız oldu?**

- Bəli. Laboratoriyaya getdim və mənə Dental-CAD-ı öyrətmələrini xahiş etdim. Mənə EXOCAD proqramı yüklənmiş bir noutbuk verdilər. Əvvəlcə proqramla tanış etdilər, sonra isə nəticədə nə alınacağını göstərdilər. Çox xoşuma gəldi, universitetdə oxuduğum müddətdə orada təcrübə toplamağa qərar verdim.

**- Laboratoriyada EXOCAD proqramı ilə təcrübəniz karyera məqsədlərinizə necə təsir edir?**

- Mən CAD dizaynını çox sevirəm. Görək bu yol məni hara aparacaq. Diş həkimi olduqdan sonra belə, bəzi CAD dizaynı ilə məşğul olmaq istəyirəm. Rəqəmsal iş prosesi mənə yalnız qapaqlara, vinirlərə və ya protezlərə kənardan baxmağa imkan vermir, həmçinin yumşaq toxuma, diş, kök və ağız boşluğunun bütün perspektivlərini virtual olaraq göstərir.

**- Qrup yoldaşlarınız rəqəmsal stomatologiya haqqında nə düşünür? Bu haqda danışırsınız?**

- Laboratoriya hər tərəfdən şüşə ilə əhatə olunduğundan, qrup yoldaşlarım orada işlədiyimi görüb bu barədə soruşurlar. Mən nə etdiyimi izah edirəm və onlar deyirlər: "Vau! Bu çox gözəldir". Bu, onlar üçün yeni kəşfdir. Laboratoriya da genişlənir. Onu rəqəmsal mərkəzə çevirmək istəyirlər. Beləliklə, yaxın gələcəkdə tələbələr daha çox məlumat ala biləcəklər.

**- Sevimli dişiniz hansıdır?**

- Mərkəzi kəsici diş. Bu çox sadə anatomiyadır, amma düşünürəm ki, hər detal - hər bucaq, hər kənar xətt vacibdir. Çox sadə, lakin detallarla zəngin.

**Etibarsız sayılır**

Murtadha Al-Challabi Heydər Abedin (qrup 218İ2b) tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
MƏĞRUR ƏLİYEV

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər. Əlyazmalar geri qaytarılmır

Qəzet "Təbib" qəzetinin kompüter mərkəzində yığılır, səhifələnir, ATU-nun Nəşriyyat-Poliqrafiya şöbəsində çap olunur və universitet daxilində yayılır

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 98c
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sifariş - 0013
Sayı 800